İdarəetmə məsələləri



ÜMUMTƏHSİL MƏKTƏBİNİN İDARƏOLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Akif Xalıqov,

Lənkəran şəhəri, S.Kazımbəyov adına 6 nömrəli tam orta məktəbin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim

Məqalədə Azərbaycan təhsilinin məzmunca yenilənməsi, ümumi təhsilin idarə edilməsinin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi istiqamətləri, şəffaf idarəetmə modelinin yaradılması, milli zəmində təhsil sahəsində böyük idarəetmə məsuliyyətinin fəaliyyətə görə bölüşdürülməsi, müəllim fəaliyyətinin dəyərləndirilməsi imkanları, təhsilin və təlimin keyfiyyətinin yüksəldilməsi yolları oz əksini tapmışdır.

Açar sözlər: *dəyərləndirmə, keyfiyyət, idarəetmə, model, rejim, öyrənən, modernləşmə, strategiya.*

Ключевые слова: *оценка, качество, управление, модель, режи., обучения, модерацuu, стратегuu.*

Key words: *evaluation, quality, management, model, regime, learning, moderation, strategy.*

Azərbaycan təhsili bu gündən sabaha məzmunca yeniləşir və müasirləşir. Son illərdə qazanılan nailiyyətlər aparılan ardıcıl və davamlı islahatlar təhsil siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir. Ulu öndərimiz Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" müddəası ilə özülü qoyulmuş milli təhsil siyasəti uğurla davam etdirilir.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət planında strateji hədəf olaraq, ümumi təhsilin idarə edilməsinin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin yaradılması, təhsilin keyfiyyətinin təminatı üzrə yeni sistemin yaradılması nəzərdə tutulmuşdur. Təhsildə demokratik idarəetmə qeyri-xətti proses olub, ümumi prinsiplər əsasında idarə olunaraq sistemli xarakter daşıyır. Milli zəmində bu məsələni daha zəngin etmək üçün Heydər Əliyev, Mustafa Kamal Atatürk, Nizami Gəncəvi, Nəsirəddin Tusi və digər tarixi şəxsiyyətlərin müdrik fikirlərinə istinad edilərək, idarəçilikdə, kollektivçilikdə, kollegiallıq məsələlərində insanlar bir-birinə kömək etdikdə, məsləhətləşdikdə idarəçiliyin daha səmərəli olmasını qeyd edirlər. A.Bakıxanov təhsildə özünüidarəyə üstünlük verirdi. Onun fikrinə görə cəmiyyət siniflərdən deyil, fərdlərdən ibarətdir. Tam hissəsiz ola bilmədiyi kimi, hissə də tamsız mövcud ola bilməz. Onlar bir-biri üçün olduqca əhəmiyyətlidir. Ona görə də A.Bakıxanov təhsilin kollegial idarə olunmasına üstünlük verirdi. Ümumtəhsil məktəbinin qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsi məktəbin idarəolunması ona rəhbərlik edilməsi səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Yeni strategiyanı reallaşdırmaq, uğurlu məktəb modelini tətbiq etmək üçün, ilk növbədə, normal mühit yaratmaq lazımdır. Bunun üçün müəllimlərin alternativ qərarlarını dinləməyə, şagirdlərin uğurlarını, işə bağlılıq yaradan amillərdən biri kimi məsuliyyəti müəllim və şagirdlər arasında bölüşdürməklə, yeni məktəb modelinin tərkib hissəsi olan məktəbin idarə edilməsində iki istiqamətin:

- təlim-tərbiyə prosesinin təşkili və idarə olunmasının;

- tədris-maddi bazanın maliyyə təsərrüfat fəaliyyətinə diqqətin artırılmasının xüsusi əhəmiyyəti vardır;

Məktəbi idarəetmə fəaliyyətinin metodoloji əsasını 1) Azərbaycan dövlətinin qanunvericiliyi 2) ölkəmizdə məktəbə rəhbərlik və onun idarəolunması təcrübəsi 3) pedaqoji elmin tarixi irsi təşkil edir. Məktəbə rəhbərlik sosial xarakter daşıdığından, cəmiyyətin və dövlətin irəli sürdüyü məsələlərin kompleks həllində beynəlxalq təcrübənin nəzərə alınması vacib şərtlərdən hesab edilir. İdarəetmə işi bir neçə mərhələdən ibarətdir. Bu gün məktəbin vəzifəsi dəyişib. Artıq biz cəmiyyətin sifariş etdiyi şagirdi hazırlayırıq. Səriştəli məktəb direktoru isə məktəbi dəyişməklə cəmiyyətə təsir göstərə bilir. Hər bir inzibati ərazidə yerləşən məktəbin öz tələbləri var. Uğurlu məktəb modelini şərtləndirən amillərdən biri də təhsil müəssisəsində işin səmimiyyət üzərində qurulmasıdır. Ona görə də idarəetmənin modernləşdirilməsi, təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi məqsədi ilə məktəbdə qiymətləndirmə anketləri əsasında pedaqoji personalın fəaliyyəti obyektiv qiymətləndirilir. Müzakirə zamanı real nəticələrə uyğun kollektivin hər bir üzvü öz reytinqini müəyyən etməklə dəyəndirilir. Nəticədə, dəyərləndirmə bir komponent kimi nəzərə alınır. İdarəetmənin prinsiplərindən biri də planlaşdırma və nəzarətdir. Planlaşdırma idarəetmənin mərkəzi həlqəsi olmaqla şagirdlərin təlim-tərbiyəsinin daha da yaxşılaşdırılması və sistemləşdirilməsi zamanı həyata keçirilir. İdarəetmənin təkmilləşdirilməsi qarşıya qoyulmuş vəzifələrin nəzərdə tutulmuş müddətdə yüksək keyfiyyətlə yerinə yetirilməsi kadr təminatından çox asılıdır. Ona görə də idarəetmədə təkmilləşmə birinci növbədə kadr potensialına görə aparılmalıdır. Məktəbin fəaliyyətində

- kadrla təminatında sərişləli, işgüzar, stabil müəllim kollektivi olmalıdır. Eyni zamanda hər bir müəllimin ixtisasartırma kurslarına göndərilməsi, attestasiyadan keçməsi, DQ-nın aparılması, qabaqcıl iş təcrübə-sinin öyrənilməsi müxtəlif layihələrdə iştirakının təmin olunması;

- məktəbin maddi-texniki bazası möhkəmləndirilməli, müasir təlim avadanlığının, texniki xidmətin, informasiya və kommunikasiya texnologiyalarının, məktəb saytının, müxtəlif beynəlxalq layihələrə çıxışın təmin olunması;

- idarəetmənin demokratikləşdirilməsində idarəetmə fəaliyyətinin qiymətləndirilməsində valideyn, müəllim və şagirdlərin fəal iştirak etməsi;

- ümumtəhsil müəssisəsində idarəetmənin fəaliyyətinin stimullaşdırılması; Bu mexanizm ümumtəhsil müəssisəsi tərəfindən hər iki ildən bir kollektivin və hər bir üzvünün fəaliyyətinin dəyərləndirilməsi üçün kollegial orqanlardan ibarət yaradılmış

komissiya tərəfindən həyata keçirilir və qiymətləndirmə ilə nəticələnir. Keyfiyyətin göstəricisi kimi dəyərləndirmə prosesi kollektivin stimullaşdırılmasında geniş imkanlara malikdir. Bu vəzifələrin yerinə yetirilməsinin yollarından biri məktəbdaxili nəzarətin səmərəli təşkilidir. Fəaliyyətin dəyərləndirilməsi müvafiq meyarlara uyğun şəkildə aparılır. İllik və yarımillik üzrə hər bir müəllimin fəaliyyətinin dəyərləndirilməsi ilə həyata keçirilir. Dəyərləndirmə prosesi üç mərhələdən ibarət olur və hər mərhələ ballarla qiymətləndirilir. Qiymətləndirmə tapşırıqları məktəbin tədris, tərbiyə və ictimai həyatını əks etdirir. Ümumi balları cədvəl əsasında qiymətə çevirməklə, qiymətləndirmə şkalası vasitəsi ilə 2,3,4,5 rəqəmlərlə aparılır. Həmin qiymətə və bala uyğun meyarlar müəyyənləşdirilir. Nəticənin tələblərə cavab verib-verməməsi, qəbuledilməz dərəcədə yerinə yetirilməsi və tövsiyələr verilməsi qərarı müəllimin imzası ilə təsdiq edilir. 451-500 əla nəticə və 351-450- gözlənildiyindən yaxşı nəticə -5, 251-350-tələblərə cavab verir -4,151-250 tələblərə cavab vermir -3,0-150 işini qəbuledilməz dərəcədə yerinə yetirir -2, 251-dən az bal toplayanlara tövsiyələr verilir.

Müasir dövr yüksək ixtisaslı elmi-nəzəri və metodik cəhətdən yetkin və səriştəli müəllim kadrları tələb edir. Belə kadrlar olmasa, məktəbin fəaliyyətini pedaqoji cəhətdən məqsədəuyğun şəkildə təşkil etmək təlim-tərbiyənin keyfiyyətini günün tələbləri səviyyəsinə qaldırmaq mümkün deyil. Təhsil Nazirliyi bunu nəzərə alır, müəllimlərin diaqnostik qiymətləndirilməsi də bu məqsədə xidmət edir. Müəllimlərin elmi-nəzəri və praktik səviyyəsinin yüksəldilməsinə kömək edən amillərdən biri də məktəbdə müəllimlərlə aparılan metodik işlərin səmərəli təşkilidir. Məktəbdə müəllimlərlə aparılan metodik işin məzmunu İKT-nin imkanlarından, internet resurslarını tədris prosesinə tətbiqi bacarıqlarından, treninq və kurslarda fəal iştirakından, məruzə, çıxış və məqalələrin yazılmasından, metodik ustalığının artırılmasından, sinif müəllimlərin, sinif rəhbərlərinin, fənn komissiyaları və metodbirləşmə rəhbərlərin açıq dərslərdə qabaqcıl iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsindən, dəsrlik, metodik vəsaitlərin müzakirəsində müəllimlərin fəaliyyətini əks etdirən sərgilərin keçirilməsindən və müxtəlif xarakterli işlərdə onların iştirakının təmin olunmasından ibarətdir. Məktəbdə metodik işin təşkilində fənn komissiyalarında idarəetmə məsuliyyətinin fəaliyyətə görə bölüşdürülməsi əhəmiyyətli nəticə verir. Məktəbimizdə idarəetmə işinin səmərəli təşkili məqsədi ilə ayrı-ayrı fənn metodbirləşmədən ibarət metodkomissiyalar yaradılmış, onların fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. İdarəetmə işində sinif rəhbərləri ilə yanaşı valideynlər və sinif şagirdlərindən ibarət idarəetmə şurası yaradılmış, onların fəaliyyət funksiyaları bölüşdürülmüşdür. Ötən müddətdə idarəetmədə məsuliyyətin bölüşdürülməsi sferasında standartlara müvafiq öyrənənlərin keyfiyyətə görə səviyyəsinin müəyyənləşdirilməsi öz müsbət nəticəsini vermişdir. Məktəbimizin təcrübəsinə əsaslanıb demək

olar ki, üç texnologiya: məqsədə görə idarəetmə, prosesə görə idarəetmə və nəticəyə görə idarəetmə təhsilin keyfiyyətinin yüksəldilməsinə səbəb olur. Bu zaman ona diqqət yetirmək lazımdır ki, müəllim səviyyəsində təhsilin keyfiyyətinin yüksəldilməsi, yəni öyrənənin tələb etdiyi səviyyədə biliklər, bacarıqlar və müvafiq keyfiyyətlər təmin edilsin. Öyrənən səviyyədə təhsilin keyfiyyəti isə təhsilin məzmununun fəaliyyət üsullarının və s. mənimsəmə dərəcəsinə görə başa düşülməsi deməkdir.

Təhsildə keyfiyyətin cəmiyyətin tələbatına hansı səviyyədə uyğunluğunu və taksonomiya ilə bağlılığını yəni idarəetmənin məqsədinə görə onun fəaliyyət növünün müəyyənləşdirilməsini və təlimin məqsədindən asılı olmasını müəyyənləşdirmək üçün ümumtəhsil müəssisələrini fəaliyyət rejimi ilə işləyən məktəblərə və inkişaf rejimi işləyən məktəblərə ayırmaq lazımdır. Təklif olunmuş modelə görə məktəbin fəaliyyət indikatorları hansı sahədə yüksəkdə durursa, o, fəaliyyət rejimli məktəblərdən hesab edilir.

Bu gün inkişaf rejimi ilə işləyən məktəblər üstünlük təşkil edir.Təkcə məktəbin effektiv idarə edilməsi yox həm də inkişaf dinamikasının təmin edilməsi, müəllimin fəaliyyətinin dəyərləndirilməsi, təhsilin və təlimin məzmununun idarə edilməsi keyfiyyətin yüksəldilməsinə xidmət edir. Bu xidmət, əsasən, üç istiqamət üzrə aparılır: 1. Nəticələrin keyfiyyəti; 2. Şəraitin keyfiyyəti; 3. Prossesin keyfiyyəti.

Nəticələrin keyfiyyəti qarşıda qoyulan hədəfə çatmaq ölçüsüdür və hər bir təhsil müəssisəsi üçün keyfiyyət indikatorları vasitəsi ilə müəyyən edilir.

Öyrədənlər və öyrənənlər üçün nəticələrin keyfiyyət indikatorları müəllim və məzun modelində 2012-ci il üçün məktəbimizin timsalında aşağıdakı şəkildə təqdim olunur. Həmin il ali məktəblərə sənəd verənlər 10 nəfər, qəbul olunan 3 nəfər, 500 bal toplayan yoxdur. Lakin 2016-2017-ci il tədris ilində həmin modeldə 11 nəfər məzundan 10 nəfəri müsabiqədən keçmiş, 4 nəfər 600 baldan yuxarı bal toplamış, bir nəfər qızıl medal almış bir nəfər olimpiadanın respublika turunda medala layiq görülmüşdür.

İdarəetmənin yeni strukturda təqdim olunması, keyfiyyətin səmərəli idarə olunması ilə bağlıdır. Öyrədən üçün şəraitin keyfiyyəti daxili motivasiyanın, stimullaşdırma üsullarının və metodiki işlərin düzgün təşkili ilə təyin olunur. Öyrənən üçün şəraitin keyfiyyəti isə əlverişli təhsil mühitinin, motivasiyanın, sosial qayğının olması ilə bağlıdır. Ona görə də keyfiyyət fəaliyyətin xarakteristikasıdır. Fəaliyyət-cəmiyyətin inkişaf etməsi naminə ümumi təhsil pilləsi üzrə idarəetmənin təkmilləşdirilməsi üçün strateji hədəf olaraq seçilmişdir. Bu baxımdan beynəlxalq təcrübə idarəetmənin modernləşdirilməsində aparıcı variantlardan hesab olunur. Təhsilin dövlət sektorunun idarə edilməsinin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi və təhsil müəssisələrində şəffaf idarəetmə modelinin yaradılmasında yeni idarəetmə mexanizminin təqdim olunmasında aşağıdakı amillərin nəzərə alınması önəmli olardı.

- müsabiqə əsasında ehtiyaca görə müvafiq mövzular əsasında təlimlərin

təşkili;

- yekun qiymətləndirmə əsasında müəllimlərin imkanlarının müəyyənləşdirilməsi;

- müsahibə əsasında müəllim və rəhbər vəzifələrə namizədlərin müəyyənləşdirilməsi;

- təhsil müəssisələrinin əməkdaşlıq etdiyi məktəblərin müəyyənləşdirilməsi, nəticələ-rin müqayisəli təhlilinin təqdim edilməsi və ümumi təhsil müəssisələri üzrə layihələrin genişləndirilməsi;

Ümumtəhsil müəssisələrinin idarə olunmasının səmərəli üsullarından biri də odur ki, məktəb rəhbəri pedaqoji prosesi daim nəzarətdə saxlamalıdır. O, müvəffəqiyyət göstəricilərini izləməli, müasir yanaşma və qərarların səmərəliliyini müəyyənləşdirməli, dövlətin təhsil siyasətini gerçəkləşdirməyə nail olmalıdır.

Rəyçi: dos. İ.Cavadov

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // Azərbaycan məktəbi, 2013, №5.

2. Mehdizadə M. Ümumitəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi. Bakı: Maarif, 1982, səh. 382.

3. Mehrabov A. Təhsildə səriştəli yanaşma: mahiyyəti və məzmunu. // Azərbaycan məktəbi, 2007, № 1.

4. Mehrabov A., Quliyeva S. Ümumitəhsilin keyfiyyəti və onun idarəolunmasında qiymətləndirilmənin rolu. // Azərbaycan məktəbi, 2004, № 1.

5. Mehrabov A. Müasir Təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, səh. 261-269.

6. Cavadov İ. Təhsilin keyfiyyət təminatında monitorinq və qiymətləndirmənin rolu. // Azərbaycan məktəbi, Bakı, 2005, № 1, səh.15-21.

7. Məmmədzadə R. İdarəetmə mədəniyyəti. Bakı: Təfəkkür, 1999, səh. 116.

A.Халыгов

Усовершенствование управления общеобразовательной школы

Резюме

В статье основное внимание уделяется обновлению содержания азербайджанского образования, совершенствованию управления общим образованием на основе международного опыта и созданию прозрачной модели управления. Также здесь отражены распределение обязанностей старшего руководства на национальном уровне в области образования, возможности оценки эффективности учителей, пути повышения качества образования и обучения.


A.Khalykov

Improvement of the management of the general education school

Summary

The article focuses on updating the content of Azerbaijani education, improving the management of general education based on international experience and creating a transparent governance model. It also reflects the distribution of responsibilities of senior management at the national level in the field of education, the possibility of assessing the effectiveness of teachers, ways to improve the quality of education and training.

İnnovasiyalar



KOMPETENSİYALARA ƏSASLANAN MODUL TEXNOLOGİYALARI ƏSASINDA TƏDRİS ZAMANI NƏZƏRİYYƏ İLƏ PRAKTİKANIN İNTEQRASİYASI

Malik Qurbanov,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun peşə təhsili şöbəsinin baş mütəxəssisi

Məqalə peşə təhsili müəssisələrində kompetensiyalara əsaslanan modul texnologiyaları əsasında tədris aparılarkən nəzəri biliklərlə praktik işin inteqrasiya olunmuş şəkildə tədrisi məsələlərinə həsr edilmişdir. Məqalədə Modulun lahiyələndirilməsi zamanı nəzərdə tutulmuş ümumi vaxtın nəzəri və praktiki hissələr arasında bölünməsi, ümumi peşə bölməsindəki fənlərin inteqrasiya olunaraq təlim məqsədlərinə uyğunlaşdırılmış şəkildə tədrisi və s. bu kimi məsələlər də öz əksini tapır.

Açar sözlər: *kompetensiya, modul, modul texnologiyaları, nəzəri material, praktik iş.*

Ключевые слова: *компетенция, модуль, модульные технологии, теоретические материалы, практическая работа.*

Key words: *competence, module, module technologies, theoretical material, practical work.*

Kompetensiyalara əsaslanan modul texnologiyaları (KƏMT) əsasında aparılan tədris prosesinin fənyönümlü ənənəvi metodikadan başlıca fərqi nəzəriyyə ilə praktikanın vəhdətidir. Odur ki, KƏMT əsasında tədrisi həyata keçirmək üçün, ilk növbədə, planlaşdırılası məsələlərdən biri də nəzəri biliklərə praktik işin vaxt (zaman) etibarı ilə nisbətinin təyinidir.

Öyrənən hər hansı praktik bacarığı əldə etmək üçün mütləq şəkildə bəzi nəzəri (akademik) biliklərə sahib olmalıdır. Amma nəzəri biliklər kifayət qədər çox olduğundan onların hamısının dərs zamanı öyrədilməsi heç də məqsədəuyğun deyil. Odur ki, akademik biliklərin çox cüzi və həm də olduqca vacib hissələri öyrədən tərəfindən seçilməli və təlim prosesi zamanı çox yığcam şəkildə şərh edilməlidir. Yerdə qalan daha geniş hissə akademik biliklər isə fərdi şəkildə (müstəqil) öyrənmək üçün öyrənənə əlavə oxu materialı kimi ev tapşırığı formasında verilməlidir. Bura dərslik, elektron dərslik, yaxud internet materiallarının adlarını və onların əldə ediləcəyi ünvanları da əlavə etmək olar.

Tədris ediləcək nəzəri materiallar hansı elmi əsaslarla seçilməli və praktiki işlə necə inteqrasiya olunmalıdır? Nəzəri materialların tədrisinə ayrılan vaxtın cəmi dərs saatına nisbəti necə olmalıdır?

Modulu tərtib edən, həmçinin tədrisi aparan şəxsin bu sahənin bilicisi olması nəzəri və praktik materialların seçilməsi zamanı vacib şərt kimi ortaya çıxır. Məhz mütəxəssis bilir ki, modulda nəzərdə tutulmuş tədris məqsədinə çatmaq üçün öyrənən, ilk növbədə, hansı nəzəri biliklərə sahib olmalıdır. Məsələni bir nümunə üzərində araşdıraq: